# Azərbaycan təhsilində pedaqoji kompetensiyaların həyata keçməsinə mane olan faktorlar

**Mehriban Ağa qızı Həsənova**
*GDU-nun İnformatika kafedrasının dosenti,*
*texnika elmləri üzrə fəlsəfə doktoru*
**E-mail:** mehriban-70@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. Ə.Q. Pələngov,
f-r.ü.f.d., dos. Ə.Ə. Aslanov

**Açar sözlər:** kompetensiyalar, optimallaşdırma, pedaqoji kadrlar
**Ключевые слова:** компетенции, оптимизация, педагогические кадры
**Key words:** competence, optimization, pedagogial staff

Pedaqoji kompetensiyaların inkişafı üzrə problemlərin nəzərdən keçirilməsini müəllimlərin sosial tərkibinin analiz edilməsindən başlamaq lazım gəlir. Statistik rəqəmlərə nəzər salsaq, ümumi orta təhsil sferasında pedaqoji kadrların hazırlanması miqyasına görə genişlənir. Bu təbiidir və ölkəmizdə əhalinin sayındakı artımla sıx bağlıdır. Hələ də kənd məktəblərində müəllim kadrların çatışmazlığı davam edir. Keçmiş təhsil naziri M.Cabbarov 2 il bundan qabaq ucqar məktəblərdə 2000-dən çox saxta diplomla fəaliyyət göstərən müəllimin olduğunu vurğulamışdı. Onu da əlavə etmişdi ki, həmin müəllimləri ona görə işdən azad etmirlər ki, onları əvəz edə biləcək kadrlar yoxdur. Bu fakt özlüyündə pedaqoji kadrların hazırlanmasında ciddi problemlərin olduğunu göstərir.

Müəllim kadrlarının fəaliyyətinə mənfi təsir göstərən digər bir məsələ ondan ibarətdir ki, hazırda kənd yerlərində müəllim peşəsini maraqdan salan güclü sosial-iqtisadi faktorlar mövcuddur. Faktorlar təkcə müəllimlərin əmək haqqının azlığı ilə bitmir, bu həm də müəllimin sosial təminatı və cəmiyyətin təhsilin problemlərinə qədərincə diqqət yetirməməsi ilə bağlıdır. Əslində, bizim məktəblərin müəllim kadrları Qərbi Avropanın inkişaf etmiş ölkələri ilə müqayisədə həddindən çox struktur dəyişikliyinə uğramışdır. Pedaqoji kadrlar şəhərdə feminizasiyaya uğramış, kənddə isə bu proses əksinə getmişdir. Ona görə də hər iki halı təhsil üçün xoşa gəlməyən tendensiya kimi qiymətləndirmək düzgün olardı. Hesab edirik ki, təhsil prosesinə cinsi əlamətə görə diqqət yetirmək hər bir dövlətin təhsil sahəsində qarşısına qoyduğu başlıca vəzifələrindən biridir. Bu həm də ona görə vacibdir ki, "pedaqoji fəaliyyətin predmeti təkcə biliklərin ötürülməsi deyil, eyni zamanda şagirdlərin şəxsiyyət kimi inkişafı və böyüyən nəslin sosializasiyasıdır" [1]

Bu kontekstdə müəllimlərin cinsi tərkibi davranış modelinin mənimsənilməsi ilə bağlıdır, çünki bu gün yeniyetmə məktəbdə, əsasən, qadın nəzarəti situasiyasında qalır, yəni o, sosial nəzarətin cinsi rol oynadığı modeli dominant rol kimi başa düşür. Buradan da bir çox problemlər kompleksi yaranmış olur, o isə böyüyən nəslin fominizasiyası ilə bağlıdır. Maraqlı faktlardan biri də budur ki, zehni əməklə məşğul olanların sayı ümumi əhalinin 35%-ni təşkil edir. Məhz bu artım zərif cinsin nümayəndələri hesabına baş vermişdir.

Bir tərəfdən qadınların emansipasiyası, digər tərəfdən kişilərin təhsil sektorunda azlıq təşkil etməsi müəyyən disproporsiya yaratmışdır.

Müəllimlərin pedaqoji kompetensiyalarının yerinə yetirilməsinə mane olan faktorlardan biri də məktəblərin optimallaşdırılmasıdır. Bu proses təkcə bizim respublikamızda deyil, digər

postsovet ölkələrində aktual məsələyə çevrilmişdir. Proses bəzi ölkələrdə daha sərt aparılmışdır. Deyək ki, qonşu Ermənistanda aparılan optimallaşma prosesi hətta kənd məktəblərində təhsili iflic vəziyyətinə salmışdır. Oxşar mənfi halların Ukraynada və Rusiyanın ayrı-ayrı regionlarında (məsələn, Tula oblastında) baş verməsi onu göstərir ki, həmin ölkələr ciddi maliyyə problemi ilə üzləşmişdir.

Azərbaycan Respublikasında da məktəblərin optimallaşdırılması prosesinə start verilmişdir, lakin bu heç də ölkəmizin maliyyə çətinlikləri ilə qarşılaşması anlamına gəlmir. Bu məsələ barədə ilk olaraq "Təhsil işçilərinin 2011-ci il sentyabr konfranslarının keçirilməsi haqqında Azərbaycan Respublikası Təhsil Nazirinin əmri"ndə məlumata rast gəlirik. Orada qeyd edilir: "Məktəb şəbəkəsinin optimallaşdırılması sahəsində zəruri tədbirlərin görülməməsi, kadr siyasəti düzgün aparılmadığından məktəblərdə lüzumsuz olaraq xeyli artıq müəllim saxlanması, xüsusən ibtidai müəllim sıxlığının yaranması, eləcə də aparat və metodkabinet əməkdaşlarının böyük əksəriyyətinin müasir təhsil innovasiyalarını mənimsəməməsi yerli təhsil orqanlarının fəaliyyətindəki ciddi qüsurlardan hesab edilir" [2 ].

Azərbaycan məktəblərində optimallaşma prosesinin maliyyə çatışmazlığı ilə əlaqədar olmamasının səbəbini əmrdən yuxarıda verilmiş iqtibasla da sübut etmək olar. Bunu isbat edən digər fakta da nəzər salaq: 2009-2011-ci illər Azərbaycanda neft ixracının ən intensiv vaxtı idi. Ölkənin ümumdaxili məhsulu misli görünməyən artımla müşahidə edilirdi. Bütün bunlara baxmayaraq, məktəblərin optimizasiya prosesi başladı və bu, bir çox yerlərdə ziyansız ötüşmədi.

Aşağıdakı cədvəldə ümumtəhsil məktəblərində optimaliziya prosesinin dinamikasını açıq müşahidə edə bilərik.

| **İllər** | **Cəmi ümumtəhsil məktəblərin sayı** | **Dövlət** | **Qeyri-dövlət** |
|---|---|---|---|
| 2000/2001 | 4561 | 4561 | - |
| 2001/2002 | 4551 | 4551 | - |
| 2002/2003 | 4555 | 4546 | 9 |
| 2003/2004 | 4565 | 4554 | 11 |
| 2004/2005 | 4553 | 4542 | 11 |
| 2005/2006 | 4559 | 4547 | 12 |
| 2006/2007 | 4538 | 4525 | 13 |
| 2007/2008 | 4562 | 4545 | 17 |
| 2008/2009 | 4557 | 4540 | 17 |
| 2009/2010 | 4546 | 4529 | 17 |
| 2010/2011 | 4539 | 4522 | 17 |
| 2011/2012 | 4523 | 4505 | 18 |
| 2012/2013 | 4515 | 4495 | 20 |
| 2013/2014 | 4513 | 4485 | 28 |
| 2014/2015 | 4481 | 4462 | 19 |

Cədvəldən də göründüyü kimi, 2000/2001-ci illərdə respublikamızda 4561 məktəb fəaliyyət göstərdiyi halda, 2014/2015-ci illərdə 4481 məktəb fəaliyyət göstərirdi. Deməli, 15 il ərzində 80 ümumtəhsil məktəbi ləğv olunmuşdu.

Bütövlükdə məktəblərin optimizasiya prosesi siniflərdə şagird kontenigentinin yerləşməsi üçün müəyyən sıxlıq yaradır və bu da müəllimin pedaqoji kompetensiyalarını layiqincə yerinə

yetirməyə imkan vermirdi.

Müəllimin pedaqoji kompetensiyalarını yerinə yetirmək üçün vacib faktorlardan biri müəllim-şagird nisbətidir, yəni hər bir müəllimin sayına neçə şagird düşməsi. Təbii, burada da birmənalı fikir söyləmək çətindir. Konkret fikir söyləmək üçün mütləq dünya statistikasına diqqət etməli və ümumi nəticələri təhlil etdikdən sonra konseptual fikir ortaya qoymaq mümkündür.

Amerika-Azərbaycan Ticarət palatasının təşkilatçılığı ilə keçirilən işgüzar görüşdə belə fikir səslənmişdir: "Koreyada bir müəllimə təxminən 35, Rusiyada 18 şagird düşür. Nazirin sözlərinə görə, bu o deməkdir ki, Azərbaycan məktəblərində şagirdlərə müəllimlər daha çox diqqət yetirir: "Biz əgər qapımızı professionalların üzərinə açsaq, onlar təhsilin yüksəlməsinə öz töhfələrini verəcəklər. Təhsil sahəsində nəticələr əldə etmək üçün bizim baxışımız və strategiyamız vacibdir. Təhsil sisteminin biliklərin bölüşdürülməsi və vətəndaşın formalaşdırılması kimi əsas iki vəzifəsi var: Biz inkişaf etmiş ölkələrin siyahısına baxsaq, görərik ki, həmin ölkələrin təhsili inkişaf edir. Həmin ölkələrdə əsas kriteriyalar ölkələrin zənginliyi, təhsil sistemi və eyni zamanda, insanların biliklərinin çox olmasıdır. Çünki hər bir ölkənin dünyada mövqeyini insanların bilikləri və insan kapitalı müəyyənləşdirir" [3].

Heç şübhəsiz, bu sözlərdə müəyyən həqiqət payı vardır. 2014-cü ildə bir müəllimə 8,5 şagird düşürdü. Nazir də çıxışanda onu vurğulamaq istəmişdir ki, dövlətimizin təhsilə qayğısı onun ayırdığı maliyyə ilə ölçülür. Biz yuxarıda keçmiş nazir M. Mərdanovun məhz bu problemə aid əmrindən iqtibas gətirmişdik. Orada müəllim-şagird nisbətinin neqativ tərəfləri təhlil edilmiş, qeyd edilmişdi ki, müəllim sıxlığı çox hallarda təhsilə ayrılan vəsaitin dağıdılması ilə müşahidə olunur. Yeni nazirin çıxışında isə müəllim-şagird nisbətinin 1/8,5 civarında olmasının pozitiv tərəfləri təhlil edilir və göstərilir ki, Azərbaycanda təhsilin inkişafı üçün real imkanlar mövcuddur.

Ola bilər ki, statistik məlumatlar arasında müəyyən uyğunsuzluq olsun. Aşağıda geridə qalmış ölkələrin statistikasına diqqət yetirək.

| № | Ölkələr | Bir məktəb müəlliminə düşən şagirdin sayı | İllər |
|---|---|---|---|
| 1. | Mərkəzi Afrika Respublikası | 68,3 | 2012 |
| 2. | Pakistan | 41,86 | 2004 |
| 3. | Malaziya | 41,52 | 2012 |
| 4. | Efiopiya | 39,7 | 2012 |
| 5. | Eritreya | 37,89 | 2012 |

**Məqalənin aktuallığı.** Müasir dövrdə təhsilin qarşısında duran vacib problemlərdən biri müəllimin pedaqoji kompetensiyalarının lazımi səviyyədə olmasına mane olan faktorları aşkarlamaq və onların aradan qaldırılması üçün tədbirlər planının hazırlanmasıdır. Məqalədə bu məsələlərə toxunulmuşdur.

**Məqalənin elmi yeniliyi.** Məqalədə müəllimlərin pedaqoji kompetensiyalarının həyata keçirilməsinə mane olan faktorlar içərisində həm subyektiv, həm də obyektiv amillərin rolu müsbət və mənfi tərəfdən izah edilmiş, mühakimələrin dürüstlüyünü üzə çıxarmaq üçün bir sıra müqayisələr aparılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müəllimlərin pedaqoji kompetensiyalarının həyata keçirilməsinə mane olan bəzi əsas faktorlar aşkarlanmışdır.

## Ədəbiyyat

1. Образование и интеллектуальный потенциал России. М, 1998.
2. "Təhsil işçilərinin 2011-ci il sentyabr konfranslarının keçirilməsi haqqında" Azərbaycan Respublikası təhsil nazirinin əmri. http://edu.gov.az/az/page/451/4365
3. https://apa.az/xeber-az/sosial_xeberler/nazir-mikayil-cabbarov-azerbaycanda-1-muellime 8-5-sagird-dusur.html

**М.А. Гасанова**

## Факторы, препятствующие реализации педагогических компетенций в азербайджанском образовании

## Резюме

В статье были перечислены те факторы, которые отрицательно влияют на выполнение педагогических компетенций учителя. В составе этих факторов имеются и положительные стороны, так как учитывая необходимость положительных тенденций, их одобрили. Были рассмотрены оптимизация школ и их влияние на процесс, о котором мы говорим. Чтобы выявить истину были приведены сравнения.

**M.A. Hasanova**

## Obstacles to the implementation of pedagogical competences in Azerbaijani education

## Summary

The article lists the factors that negatively affect the implementation of pedagogical competences of teachers. There are also positive aspects to these factors, as they have been endorsed in view of the need for positive trends. Optimization of schools and their impact on the process we are talking about were considered. To reveal the truth was the following comparisons.

**Redaksiyaya daxil olub:** 07.11.2019